Ümumi məlumat	Fənnin adı, kodu və kreditlərin sayı	CHEM 102, Ümumi kimya, 2 AKTS	
	Fakültə adı	Hasvet Baytarlıq Təbabəti	
	Departament	Baytarlıq Təbabəti	
	Proqram	Bakalavr	
	Tədris semestri	2025/26-cı tədris ilinin payız semestri	
	Fənni tədris edən müəllim(lər)	k.ü.f.d., dos. Ülvüyyə Yolçuyeva Ceyhun qızı	
	E-mail	u.jeyhunzade@gmail.com	
	Telefon		
	Mühazirə otağı/ cədvəl	Bakıxanov korpusu	
	Məsləhət saatları		
Prerekvizitlər			
Tədris dili	Azərbaycan dili		
Fənnin növü (məcburi seçmə)	Məcburi		
Dərsliklər və əlavəədəbiyyat	**Əsas ədəbiyyat** 1. Petrucci, R. H., Herring, F. G., Madura, J. D., & Bissonnette, C. (2017). General Chemistry: Principles and Modern Applications (11th ed.). Pearson Education. 2. Chang, R., & Goldsby, K. A. (2014). General Chemistry: The Essential Concepts (7th ed.). McGraw-Hill Education. 3. Bağ, H. (2012). Genel Kimya (6. Baskı). Ankara: Gazi Kitabevi. 4. YÖK Ders Notları (2020). Veteriner Fakültesi Genel Kimya Ders İçerikleri. Türkiye Cumhuriyeti Yükseköğretim Kurulu Yayınları. **Yardımçı ədəbiyyat** 5. Kotz, J. C., Treichel, P., Townsend, J. R., & Treichel, D. A. (2019). Chemistry & Chemical Reactivity (10th ed.). Cengage Learning. 6. Mortimer, C. E., & Müller, U. (2003). Chemistry (7th ed.). Wadsworth Publishing. 7. Atkins, P., & de Paula, J. (2014). Atkins' Physical Chemistry (10th ed.). Oxford University Press. 8. Masterton, W. L., & Hurley, C. N. (2008). Chemistry: Principles and Reactions (6th ed.). Brooks/Cole.		
Kursun veb saytı	www.chemistry.coach.com / high.htm; www.chem.web.com		
Tədris metodları	Mühazirə	+	15
	Praktiki məşğələlər	+	x
	Laboratoriya işləri		x
Qiymətləndirmə	Komponentləri	Tarix/son müddət	Faiz (%)
	Quiz		15
	Davamiyyət		5
	Aralıq imtahanı (yazılı)		30
	Fəallıq		5
	Prezentasiya/Qrup müzakirə		5
	Final imtahanı (yazılı)		40
	Yekun		100
Kursun təsviri	Ümumi kimya kursu kimyanın fundamental prinsiplərini, atom və molekulyar quruluşu, kimyəvi reaksiyaların əsaslarını və maddələrin xassələrini öyrənməyə yönəlib. Bu kurs tələbələrə kimyanın əsas qanunlarını, maddələrin quruluşunu və onların fiziki-kimyəvi xassələrini başa düşməyə imkan yaradır. Kurs çərçivəsində atom quruluşu, dövri sistem, kimyəvi rabitələr, stexiometriya, termokimya, kimyəvi tarazlıq, turşular və əsaslar, elektrokimya və kimyəvi kinetika kimi mövzular ətraflı şəkildə araşdırılır. Tələbələr həm nəzəri biliklər əldə edəcək, həm də laboratoriya təcrübələri vasitəsilə kimyəvi analiz metodlarını və praktiki bacarıqları inkişaf etdirəcəklər. Kurs, kimyanın təbiət elmləri, mühəndislik, tibb və əczaçılıq kimi müxtəlif sahələrdə tətbiqini anlamağa kömək edərək tələbələrin elmi düşüncə və problem həll etmə bacarıqlarını gücləndirəcək.		

Kursun məqsədi	Kursun əsas məqsədləri aşağıdakılardır: - Kimyanın fundamental prinsiplərini öyrətmək – Atom və molekulyar quruluş, dövri sistem, kimyəvi rabitələr və reaksiyalar kimi əsas anlayışları izah etmək. - Kimyəvi reaksiyaların mahiyyətini açmaq – Maddələrin bir-biri ilə qarşılıqlı təsirini, stexiometriya, termokimya, kimyəvi tarazlıq və reaksiyaların sürətini anlamaq. - Praktiki bacarıqların inkişafı – Kimyəvi analiz metodlarını mənimsətmək və laboratoriya təcrübələri vasitəsilə eksperimental bacarıqları artırmaq. - Tətbiqi biliklər vermək – Kimyanın əczaçılıq, biotibb, mühəndislik və ətraf mühit sahələrindəki rolunu göstərmək. - Tənqidi düşüncə və problem həll etmə bacarığını gücləndirmək – Kimyəvi məsələləri həll etmək və real problemlərə kimyəvi yanaşmalar tətbiq etmək qabiliyyətini inkişaf etdirmək. - Baytarlıq elmlərində kimyanın tətbiqini izah etmək və tələbələrdə kimyəvi düşünmə qabiliyyəti formalaşdırmaq.
Tədrisin (öyrənməni n)nəticələri	Bu kursu uğurla tamamlayan tələbələr aşağıdakı bilik və bacarıqları əldə edəcəklər: 1. Atom və molekul anlayışlarını izah edə biləcək. 2. Kimyəvi reaksiyaları tənlik formasında yaza və tarazlaşdıra biləcək. 3. Maddələrin quruluş-xassə əlaqəsini izah edə biləcək. 4. Həllər və kolligativ xassələri baytarlıq sahəsində tətbiq edə biləcək. 5. Turşu-baza, redoks reaksiyaları və biokimyəvi proseslərdəki rolunu anlayacaq. 6. Qaz qanunlarını və termokimya prinsiplərini tətbiq edə biləcək.
Qaydalar (tədris siyasəti və davranış)	Ümumi qaydalar Davamiyyət tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Yalnız üzürlü səbəb olduqdadekanlığa və müəllimə xəbərdarlıq etməklə dərs buraxıla bilər. Gecikmə Tələbə dərsə 10 dəqiqədən artıq gecikmişdirsə, onun qayıbı yazılır və dərs otağına daxil olmasına icazə verilir. İmtahanlar İmtahanda iştirak etməmə yalnız dekanlığın icazəsi ilə mümkündür. İctimai fəaliyyətlə əlaqədar imtahanlardan yayınma hallarına yol verilmir . İmtahanlar kumulyativ xarakterli olmalıdır. Son imtahanda sualların əksəriyyəti aralıq imtahandan sonra keçirilmiş materialların əsasında tərtib olunur. Tələbənin kursu başa vurması 60% və daha artıq bal toplamış tələbə kursu bitirmiş hesabolunur. Əks halda tələbə bu kursu yenidən keçməlidir. Pozuntu halları Aralıq və son imtahanlarda mövcud qayadaların pozulması (köçürmə cəhdlərivə digər qanunsuz hərəkətlər) hallarında tələbənin imtahan işi ləğv olunur . Dərslərdə davranış Tələbə dərs zamanı müvafiq akademik şəraitin yaradılması üçün mümkün olan hər şeyi etməlidir. İcazəsiz danışığa, lüzumsuz hərəkətlərə və s. qeyri – etik davranışa qətiyyən yol verilmir. Tələbə dərsdə ən fəal şəkildə iştirak etməli, lazım olduqda suallarverməli və müzakirələrdən kənarda qalmamalıdır.

Həftə	Gün	Fənnin mövzuları	Dərslik/Tapşırıqlar
1		Giriş və əsas anlayışlar: Maddə, element, birləşmə, qarışıq, ölçü vahidləri	[1]s.3-9;183-186 [2]s.9-11
2		Maddənin quruluşu. Atom-molekul nəzəriyyəsi.	[1]s5-8 [2]s.15-24;85-89
		Məsələlər həlli. Kimyanın əsas qanunları. Kimyəvi simvollar (işarələr), formullar vətənliklər. Maddələrin adları. Valentlik	[1]s.8-18;20-22[2]s.32-42
3		Periodik cədvəl və elementlərin xüsusiyyətləri	[1]s.8-18;20-22[2]s.19-24
4		Mol anlayışı və stexiometriya	[2]s.105-107;120-122
		Quiz. Məsələ həlli.	[2]s.105-107;
5		Kimyəvi bağlar: İyonik, kovalent, metalik bağlar	[2]s.135-157
6		Kimyəvi tənliklər və reaksiyalar	[1]s.33-34 [2]s.95-104;
		Məsələlər həlli.	[1]s.18-20 [2]s.111-117
7		Qaz qanunları və qazları xüsusiyyətləri	[1]s.39-50 [2]s.249-285

8		Termokimya: Reaksiyalarda enerji dəyişmələri	[1]s.18-20; 39-50
		Aralıq imtahanı	
9		Kimyəvi kinetika: Reaksiya sürəti və təsir edən faktorlar	[1]s.35-38 [2]s.130-147
10		Kimyəvi tarazlıq: Tarazlıq sabiti, Le-Chatelier prinsipi	[1]s.50-52 [2]s.285-89;
		Məsələlər həlli.(Quiz)	[1]s.38-39;53-55
11		Turşu-əsas nəzəriyyələri.pH anlayışı.	[1]s.50-52 [2]s.285-289
12		Bufer məhlulları. İndikatorlar	[1]s.64-76 [2]s.318-349
		Məsələ həlli	[2]s.111-117;
13		Çözüntülər və kolligativ xassələr	[1]s.64-76 [2]s.318-349
14		Redoks reaksiyalar və elektrokimya	[2]s.147-289
		Məsələ həlli	[2]s.249-285
15		Kimyanın baytarlıqla əlaqəsi və ümumi təkrar.	
		Final imtahanı	

45 saat mühazirə və seminar dərslərinin tədris olunması nəzərdə tutulur.
Bu tədris proqramı fənn haqqında tam məlumatı özündə əks etdirir və hər hansı dəyişiklik barədə öncədən xəbər veriləcək.